**Azərbaycan. -** 2024.- 24 iyul. - № 154. - S. 10.

# Azərbaycanın məqsədi COP29-un həmrəylik tədbiri olmasıdır

**Flora Sadıqlı**

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar həyata keçirilən tədbirlər və hazırlıq işləri, ölkə səviyyəsində iqlim dəyişikliyinin təsirləri ilə aparılan mübarizə hazırda mötəbər beynəlxalq tədbirlərin hər birində haqqında geniş bəhs olunan mövzudur. Öz işini başa çatdırmış II Şuşa Qlobal Media Forumunda da məhz belə oldu.

Məlumdur ki, COP29 qlobal miqyasda ən mühüm hadisələrdən biridir. Bu, dünyada, beynəlxalq arenada birnömrəli konfransdır və ilk dəfədir ki, postsovet məkanında keçirilir. Bu, eyni zamanda ən yüksək liqaya daxil olmağımız üçün misilsiz bir şansdır. Təbii ki, Azərbaycanın nailiyyətlərini gözü götürməyənləri ölkəmizin belə bir tədbirin ev sahibi olması çox narahat edir.

Buna görə də Azərbaycanın COP29-a evsahibliyi ilə bağlı qərar verildikdən heç bir həftə də keçmədən Qərb mediasında ölkəmizə qarşı hücumlar başladı. Prezident İlham Əliyev məsələyə belə aydınlıq gətirir" Biz nədə ittiham olunurduq? Neft və qazla zəngin olan ölkə olduğumuz üçün. Bu, çox təəccüblü bir haldır. Yeri gəlmişkən, COP28-in ev sahibi olan Birləşmiş Ərəb Əmirlikləri də eyni mövzuda ittihamlarla üzləşdi. Təəssüf ki, bizə qarşı çox geniş və koordinasiya edilmiş media prosesi başladı, biz ilk vaxtlar buna hazır deyildik. Biz izah etməyə çalışırdıq, bu, bizim günahımız deyil ki, biz neft və qazla zənginik. Bizim fəaliyyətimiz onun əsasında qiymətləndirilməməlidir. Biz iqtisadiyyatımızı necə şaxələndirmişik, işsizliyin öhdəsindən necə gəlmişik, yoxsulluğu necə azaltmışıq, mövzular bunlar olmalıdır. Bu gün bu göstəricilər inkişaf edən ölkələrin səviyyəsindədir, bəzən ondan daha aşağı, daha azdır, yoxsulluq beş faiz səviyyəsindədir və bəzi ölkələr bunu heç yuxusunda görə bilməz. Qazıntı yanacaq növlərindən əldə etdiyimiz gəlirlərin ədalətli paylanılması çox şəffaf şəkildə, məsuliyyətli şəkildə həyata keçirilir. Buna baxmayaraq, ittihamlar davam edir".

COP29 heyətinin səmərəli işi, aydın hədəflərə, məqsədlərə, nəticələrə köklənmiş gündəlikləri nəticəsində hücumların sayı azalsa da, tədbir yaxınlaşdıqca onların sayının artacağı ehtimalı da var. Lakin bu bir həqiqətdir ki, ölkəmiz təkcə təşkilati baxımdan tədbirlər görmür, mahiyyət baxımından da təşəbbüslər irəli sürür, inkişaf etmiş ölkələrlə fəal şəkildə işləyir, Qlobal Cənub və Qlobal Şimal arasında körpülər qurur. Üstünlüyümüz ondadır ki, dörd il ərzində Qoşulmama Hərəkatına sədrlik etmişik. 120 ölkənin iştirakı ilə orada yekdil şəkildə sədr seçilmişdik. Sədrlik müddətimiz hətta uzadıldı da. Azərbaycan bəlkə yeganə ölkədir ki, regionda və postsovet məkanında Avropa İttifaqı dövlətləri ilə, Avropa İttifaqının 10 üzvü ilə strateji tərəfdaşlıq haqqında bəyannamələr qəbul edib və imzalayıb. Azərbaycan həmçinin İslam Əməkdaşlıq Təşkilatının, "OPEC Plus" formatının üzvüdür. Prezidentimiz bir daha bildirib ki, biz neft hasil edən ölkələrlə fəal şəkildə işləyirik. Müəyyən təkliflər irəli sürmüşük ki, neftlə zəngin ölkələr maliyyə mənbələrinin toplanılmasında, səfərbər edilməsində necə daha vacib rol oynaya bilər.

Azərbaycan inkişafda olan kiçik ada ölkələri ilə də əməkdaşlıq edir. Bununla bağlı COP29 çərçivəsində tədbirimiz olacaq və orada ittifaq ölkələri də iştirak edəcək. "Biz ittifaq ölkələri ilə birgə fond yaradacağıq ki, inkişafda olan həmin kiçik ada ölkələrinə kömək edək. Çünki bu vəziyyət onların mövcudluğuna təhlükədir. Yəni biz müxtəlif istiqamətdə irəliləyirik. Hesab edirəm ki, biz Birləşmiş Ərəb Əmirliklərinin COP28-in ev sahibi kimi təcrübəsindən istifadə edəcəyik və onun üzərindən işimizi aparacağıq. Ancaq ondan qabaq COP-a Misir evsahibliyi edibdir. Onların da neft və qazı var. Bizdən sonra da Braziliya evsahibliyi edəcək. Yenə də neft və qaz ölkəsidir. Bu, onu göstərir ki, bu ölkələr enerji təhlükəsizliyi baxımından özlərini çox rahat hiss edən ölkələrdir. Onlar məsuliyyət nümayiş etdirirlər. Onlar "yaşıl texnologiya"ya, "yaşıl keçid"ə sərmayə qoyur, töhfə verirlər", - deyə Prezident İlham Əliyev bildirib.

COP29 ərəfəsində "Troyka"nın (Üçlük") təsis edilməsinin təşəbbüskarı da ölkəmiz olub. Bu, ötən ildəki, hazırkı və gələcək sədrlərin - Birləşmiş Ərəb Əmirliklərinin, Azərbaycanın və Braziliyanın "Troykası"dır. Bu, bir mexanizmdir. Buna qədər belə bir mexanizm mövcud olmayıb. Təqdirəlayiq haldır ki, təklif Birləşmiş Ərəb Əmirlikləri və Braziliya tərəfindən dəstəklənib. Çünki COP, sadəcə, bir və ya iki həftə davam edən tədbir deyil. Bu, davamlı bir prosesdir. Əgər bir ölkə hər hansı miras qoymaq istəyirsə, bu, tutarlı və konkret töhfə olmalıdır. Sözlər, bəyanatlar kifayət deyil. Burada real addımlar atılmalıdır və koordinasiya həyata keçirilməlidir. "Troyka" mexanizmi də bu məqsədlə yaradılıb .

Prezident İlham Əliyevin II Şuşa Qlobal Media Forumunda COP29-la bağlı sualları cavablandırarkən toxunduğu məsələlərdən biri də inkişaf edən ölkələrə dəstək göstərilməsinin vacibliyidir" Biz inkişafda olan kiçik ada ölkələri üçün fond yaratdıq. Ancaq biz inkişaf etməkdə olan hər bir ölkə ilə

bağlı fond yarada bilmərik. Bizim o qədər pulumuz yoxdur. Əlbəttə, bu işdə həmrəylik olmalıdır və digərlərini təşviq etməliyik ki, bizim nümunəmizə uyğun olaraq hərəkət etsinlər".

Ümumiyyətlə, Azərbaycanın məqsədi COP29-un məhz həmrəylik tədbiri olmasıdır. Cari ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi də təsadüfi deyil.